https://doi.org/10.36719/2706-6185/43/35-39

**Vüqar Abdullayev**
Milli Azərbaycan Tarixi Muzeyi
sənətşünaslıq üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-4403-8778
abvugar@yahoo.de

# Almaniyada Azərbaycan diasporunun təşəkkülü tarixindən

**Xülasə**

Bu məqalədə Azərbaycan diasporunun Almaniya Federativ Respublikasında yaranması, fəaliyyəti və təşəkkülündən bəhs olunur. Diasporumuzun Almaniyada yaranış tarixi və fəaliyyətində açar rolu oynamış ictimai xadimlər haqqında və ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra Almaniyada Azərbaycan diasporunun daha da qüvvətlənməsi və ardıcıl işləməsi qeyd olunur. Tarixən qədim köklərə malik olan Almaniya – Azərbaycan əlaqələri, bu əlaqələrin təşəkkülündə əhəmiyyətli rol oynayan insanlardan bəhs olunan məqalədə, hələ Birinci Dünya müharibəsindən əvvəl Azərbaycanda yaranmış alman konsulluğundan söz açılır. Azərbaycanda – Gədəbəydə mis mədənlərində çalışan almaniyalı mütəxəssislərin təkidi ilə bu ərazidə, sonra isə Bakıda yaranmış alman konsulluğunda və onun alman-Azərbaycan dostluq əlaqələrinin yaranmasından bəhs olunur. Eyni zamanda konsulluğun 1905-ci il fevral ayında ermənilərin Azərbaycanın müxtəlif rayonlarında və Bakı şəhərində azərbaycanlılara qarşı törətdiyi qətliamdan da söz açılır. Məqalədə hələ Birinci Dünya müharibəsindən əvvəl və Çar Rusiyası dövründə Azərbaycan ziyalılarının Almaniyada gələcəkdə Azərbaycan diasporunun yaradılmasındakı fəaliyyətindən danışılır. Beləliklə, məqalədə, əsasən, Almaniyada fəaliyyət göstərən Azərbaycan diasporunun fəaliyyətindən, təşəkkülü tarixindən danışılaraq, bu günümüzdə diasporun qloballaşan dünyamızda Azərbaycan reallıqlarını dünya ictimaiyyətinə düzgün şəkildə çatdırmaqda mühüm əhəmiyyət kəsb etdiyi vurğulanır.

***Açar sözlər:*** *diaspora, mühacirlər, Almaniya, vətən tarixi*

**Vugar Abdullayev**
National Azerbaijan History Museum
PhD in Art Studies
https://orcid.org/0000-0002-4403-8778
abvugar@yahoo.de

# The History of the Establishment of the Azerbaijani Diaspora in Germany

**Abstract**

This article talks about the creation, activity and organization of the Azerbaijani diaspora in the Federal Republic of Germany. About the public figures who played a key role in the history and activity of our diaspora in Germany, and the further strengthening and consistent work of the Azerbaijani diaspora in Germany after the coming to power of General Leader Heydar Aliyev. The German – Azerbaijani relations, which have historically ancient roots, and the people who played an important role in the formation of these relations, are mentioned in the article about the German consulate that was established in Azerbaijan even before the First World War. At the insistence of German specialists working in copper mines in Azerbaijan – Gadabey, the German consulate that was established in this area and then in Baku and its establishment of German-Azerbaijani friendly relations are discussed. At the same time, the massacre of the Armenians in different regions of Azerbaijan and in the city of Baku by the consulate in February 1905 is also mentioned. The article talks about the activities of Azerbaijani intellectuals in Germany before the First World War and

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

during the period of Tsarist Russia in the creation of the Azerbaijani diaspora in the future. In conclusion, in this article the author emphasizes the activities of the Azerbaijani diaspora, operating mainly in Germany, and the history of its formation, and also reports that today the diaspora is of great importance in our globalized world in accurately conveying the realities of Azerbaijan to the world community.

***Keywords:*** *diaspora, immigrants, Germany, homeland history*

## Giriş

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra əksər Avropa ölkələri, o cümlədən Almaniya ilə siyasi və iqtisadi əlaqələrin yaranması və təşəkkülü Azərbaycanın xarici siyasətində prioritet mövqe olmuşdur.

Möhtərəm prezident, Heydər Əliyev irsinin layiqli davamçısı İlham Əliyev cənablarının Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə, əsası Heydər Əliyev tərəfindən qoyulmuş bu əlaqələr daha da genişlənmişdir. Bu gün Azərbaycan artıq dünyəvi ölkəyə çevrilməkdədir. Ölkəmizin adı mötəbər məclislərdə hörmət və ehtiramla çəkilməkdədir. Əksər vacib, dünya əhəmiyyətli tədbirlərin məhz Azərbaycanda keçirilməsi dünya ölkələrinin dövlətimizə, dövlətçiliyimizə və dövlət başçımıza olan inamın və hörmətin bariz nümunəsidir. Xarici ölkələrdə fəaliyyət göstərən səfirliklərimiz, diplomatlarımızın çəkinmədən dövlətimizin haqlı mövqeyini müdafiə etməsi, bütün dünya ölkələrinin bizə – dövlətimizə olan inamını daha da artırır.

Cənab Prezidentimiz İlham Əliyevin, müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük müharibədəki qalibiyyətimiz, torpaqlarımızın, 30 ildən artıq erməni tapdağında qalan vətənimizin bütövlüyü uğrunda apardığımız və 19-20 sentyabr 2023-cü ildə mülki əhaliyə heç bir ziyan vermədən erməni separatçılarına qarşı anti-terror əməliyyatımız, "Dağlıq Qarabağ" mifinin darmadağın edilməsi, bütün dünyaya Azərbaycan adlı möhtəşəm, sülhsevər, tolerant bir ölkənin təntənəsini sübut etdi.

Doğrudur, hələ də dünyada ikili standartlar hökm sürməkdədir, hələ də Azərbaycanın tarixi qələbəsini həzm etməyən dövlətlər mövcuddur, lakin tarix hər şeyi olduğu kimi qiymətləndirir, gec-tez bu dövlətlər də açıq-aydın həqiqətlə barışmalı olacaqlar.

Hal-hazırda, Azərbaycan bütün torpaqlarına həqiqi sahibdir, daha əzəmətli, daha vüqarlıdır.

**Tədqiqat**

Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılmasında dünya ölkələrinin əksərində mövcud olan Azərbaycan diasporunun rolu böyükdür. Doğrudur, hal-hazırda Azərbaycana müxtəlif ölkələrdən jurnalistlər və digər qeyri-rəsmi dövlət təşkilatlarından nümayəndələr gəlir, gözləri ilə Azərbacanın Xirosimasını – Ağdam və digər viranəyə çevrilmiş Qarabağı, eyni zamanda möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi və tapşırığı ilə bu bölgələrdə aparılan abadlıq-quruculuq işlərini, qaçqın və köçkünlərin yeni tikilmiş binalarda yerləşməsini, yeni salınan hava limanları, infrastrukturun şahidi olurlar. Lakin öz ölkələrində çoxları bu təəssüratı "demokratiya" qorxusundan bölüşə bilmirlər. Məhz buna görə də Azərbaycan həqiqətlərinin dünya ölkələrinə çatdırılmasında Azərbaycan diasporunun rolu böyük olmalıdır.

Əsası 1992-ci ildən qoyulan və bu günədək böyük inkişaf yolu keçən Azərbaycan-Almaniya diplomatik münasibətlərindən söz açarkən, qeyd etməliyik ki, azərbaycanlıların ən sıx yaşadığı Avropa ölkəsi, məhz Almaniyadır. Qeyri-rəsmi məlumatlara əsasən Almaniyada 200 000 nəfər etnik azərbaycanlı yaşayır və onlardan 17000 nəfəri bu ölkənin paytaxtı Berlin şəhərində məskunlaşıb (Zeynalova, 2008, s. 54).

Azərbaycanlıların Almaniyaya mühacirət tarixini araşdırdıqda, bunun çox qədim dövrlərə getdiyinin şahidi oluruq (Seyidbəyli, 2013, s. 64). Müəllif azərbaycanlıların Almaniyaya və digər Avropa ölkələrinə mühacirət etməsini 6 mərhələyə bölür:

1-ci mərhələnin hələ orta əsrlərdən hərbi-siyasi şəraitdən asılı olaraq başlamasının, 2-ci mərhələnin Azərbaycanın Rusiya imperiyasının tərkibinə daxil olduqdan sonra (1804-1917), 3-cü mərhələnin ADR-in süqutundan sonra baş verməsini, 4-cü mərhələnin 1939-1945-ci illərdə, 5-ci mərhələnin azərbaycanlıların Cənubi Azərbaycandan, Şah rejimindən qaçmasında və sonuncu 6-cı mərhələnin 1988-1994-cü illərdə Ermənistandan deportasiya olunmuş Azərbaycanlıların SSRİ-nin

süqutu, Dağlıq Qarabağ və onun ətrafında olan 7 rayonun erməni terrorçuları tərəfindən zəbt edilməsi ilə başlanması kimi göstərmişdir.

Hələ Çar Rusiyası dövründə Azərbaycan təhsilinin üzləşdiyi çətinliklər azərbaycanlıları bir neçə Avropa ölkələrinə, o cümlədən Almaniyaya mühacirət etmək məcburiyyətində qoyduğundan seçilən ziyalılarımız məhz çıxış yolunu başqa ölkələrə təhsil dalınca getməkdə görmüşdülər (M. A. Şahtaxtinski, Ə. Şahtaxtinski, M. Q. Əliyev – Əlizadə, T. Cəfərov, A. K. Sadıxov və başqaları).

Azərbaycanda Cümhuriyyət dövründə Almaniyaya göndərilən 100-dən çox tələbənin bu ölkənin müxtəlif universitetlərində təhsil aldıqdan sonra, geri qayıdanların acınacaqlı həyatından xəbərdar olaraq Almaniyada qalması da məlumdur (Seyidbəyli, 2013, s. 64).

Cümhuriyyətin süqutundan sonra, parlamentlə əlaqədar şəxslərin izlənilməsi üzündən, xarici ölkələrdə izləndikləri üçün mühacirət edən azərbaycanlılarımızın böyük bir qismi Almaniyada məskunlaşmış, bu ölkədə mühacir həyatı keçirməklə bərabər, Almaniyanın mədəni-siyasi və humanitar həyatında yaxından iştirak etmişlər. Cümhuriyyətin qurucularından: Məhəmməd Əmin Rəsulzadə, Ə. Düdənginski, C. Hacıbəyli, M. Musazadə və digərlərinin Almaniyada nəşr etdirdikləri "Azərbaycan jurnalı" və başqa qəzet və jurnallarda alman xalqına Azərbaycan həqiqətlərini bu xalqın öz dilində çatdırmış və Azərbaycanı Şərqdə ilk müstəqillik qazanan dövlət kimi tanıtmışlar. Həmin illərdə Azərbaycandan Almaniyaya mühacirət etmiş xanım Banu (Banin) 11 bədii əsərin müəllifi kimi, Avropa ölkələrində, o cümlədən Almaniyada məşhurlaşmış, bu ölkənin mədəni həyatına öz tövhələrini vermişdir. Əsəd bəy Nisembaumun "Əli və Nino" romanı alman dilində Almaniya oxucularının, Cümhuriyyətin süqutundan sonra Azərbaycanda baş verən hadisələr və bu hadisələr fonunda xalqın azadlıq uğrunda apardığı mübarizə, mərd azərbaycanlı oğulların vətən yolunda şəhidlik zirvəsinə yüksəlməsi ilə tanış edir (Cəfərli, 2003).

1941-1945-ci illərdə alman faşizminin SSRİ-yə qəfil hücumu nəticəsində, Almaniyada əsir düşmüş azərbaycanlılarımızın sonrakı aqibətinin fatallığı (geriyə qayıdanların Sibirə sürgün edilməsi) onların bu ölkədə qalmasına və yaşamasına səbəb olmuşdur. Alman xalqının siyasi-mədəni və humanitar həyatında yaxından iştirak edən həmyerlilərimiz bu ölkədə nəşr etdirdikləri qəzet və jurnallarda yazdıqları şerləri çap etdirərək vətən həsrətilə yaşadıqlarını alman oxucularına çatdırmışlar.

Çar Rusiyası dövründə Almaniyaya göndərilən tələbələr, Cumhuriyyətin süqutundan sonra Almaniyada fəaliyyət göstərən ziyalılarımız 1941-1945-ci illərdə bu ölkədə yaradılan Azərbaycan legionunun üzvlərinin Almaniyadakı fəaliyyəti, o dövrdə nəşr olunan qəzet və jurnallar, yaradılan təşkilatlar Azərbaycan diasporunun yaradılmasında ilkin bir rüşeym, bir qığılcım olmuşdur və bundan sonrakı dövrlərdə Almaniyaya mühacirət etmiş azərbaycanlılara şübhəsiz ki, müəyyən mənada kömək olmuşlar (Rəşid, 2018, s. 10).

Lakin bütün "bu əlaqələr xaotik şəkildə olmuşdur", − desək yəqin ki, yanılmarıq, çünki bu iki dövlət arasında diplomatik əlaqələrin yüksək səviyyədə yaranmasına təkan verə bilməmişdir. Məhz 1992-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən Azərbaycan-Alman diplomatik əlaqələrinin yaranması, Almaniyada Azərbaycan diasporunun təşəkkül tapmasında böyük rol oynamışdır. Bu gün Azərbaycan-Almaniya əlaqələri iqtisadiyyatın bütün sahələrində özünü göstərməkdədir (Zeynalova, 2008, s. 54).

Azərbaycan – Alman diplomatik əlaqələrinin genişlənməsində bu iki dövlətin mədəni həyatının əlaqələndirilməsində, Almaniyada fəaliyyət göstərən Koordinasiya Mərkəzinin böyük rolu vardır. Bu mərkəz daimi olaraq Azərbaycanda fəaliyyət göstərən Koordinasiya Mərkəzi ilə əlaqədar çalışır, hər iki ölkənin mədəni, siyasi, iqtisadi həyatında baş verən yenilikləri yeri gəldikcə qarşılıqlı şəkildə qarşı tərəfə çatdırır. Almaniya-Azərbaycan Dostluq Cəmiyyətinin 2011-ci ildən fəaliyyət göstərməsi də Alman diasporunun fəallaşmasında da böyük rol oynayır (Zeynalova, 2008, s. 54). Məhz bu cəmiyyətin yaradılması və koordinasiya şurasının fəallığının nəticəsi kimi alman xalqı 90-cı illərdə Azərbaycanın başına gələn bəlalardan xəbərdar olmuşdur. Xocalı qətliamı, torpaqlarımızın 30 ildən artıq bir dövrdə erməni vandalları tərəfindən zəbt edilməsi kimi həqiqətlərin dünyaya, o cümlədən alman xalqına çatdırılmasında Azərbaycan diasporunun böyük rolu olmuşdur.

Apardığımız tədqiqat işlərindən məlum olur ki, Alman-Azərbaycan əlaqələri hələ Birinci Dünya müharibəsindən əvvəl mövcud olmuşdur. Berlin Universitetinin əməkdaşı, müstəqil

araşdırmaçı alim Mattuaz Dornfeld D. T. və Enerico Zeevald "Alman – Azərbaycan münasibətləri" məqaləsində Birinci Dünya müharibəsindən əvvəl Azərbaycanda fəaliyyət göstərən Alman konsulluğundan bəhs edir (Mattias & Zeevald, 2015, s. 8).

Məlum olduğu kimi, Azərbaycan nefti dünya ölkələrini həmişə özünə cəlb etmişdir. Qafqazın gözəlliyindən bəhs edən müəllif Qafqazda yerləşən bütün şəhərlərdən, ən gözəli kimi Bakının, onun neft buruqlarını heyranlıqla təsvir edir. Müəllif tarixə istinad edərək, Uolter qardaşları tərəfindən 1864-cü ildə Gədəbəydə mis mədənlərində aparılan işlərdən və burada yaradılan alman şirkətlərindən bəhs edir və ilk Alman konsulluğunun da Gədəbəydə yarandığını xəbər verir (1864). Sonralar Bakı öz nefti ilə alman iş adamlarının diqqətini cəlb etdiyindən 1890-cı il 7 martda Bakıda Alman konsulluğu fəaliyyətə başlayır. Reyxin inanılmış üzvlərindən olan Karl Deneyis Almaniyanın Azərbaycanda konsulu təyin edilir. Azərbaycan haqqında məlumat verən ilk alman arxivi də elə həmin ildə yaranır. Karl Deneyisin Bakıda neft hasilatının artırılmasında böyük rolu olmuşdur. İstər Gədəbəyin mis mədənlərində, istərsə də Bakının neft buruqlarında çalışan Almaniyadan gəlmiş mühəndislər, azərbaycanlı fəhlələr ilə yanaşı çalışmış, dost münasibətdə olmuş, Azərbaycanın adət-ənənələrini öyrənmişlər. Elə həmin illərdə Almaniyadan gəlmiş Paul Rell və digər mühəndislər Bakının energentika sənayesindəki inkişafında xeyli işlər görmüşlər. Paul Rell Sankt – Peterburqa və Almaniyaya göndərdiyi məktublarda (rəhbər şəxslərə) yazırdı ki, Azərbaycanda – Bakıda hər şey yaxşıdır, yeganə maneəçilik ermənilər tərəfindəndir. Sonralar 23-28 fevral 1905-ci ildə ermənilər tərəfindən Azərbaycanın rayonlarında və Bakıda törədilən qanlı terror hadisələrindən də bəhs edən konsul, ermənilərin vəhşiliklərinin şahidi kimi hətta Rusiya İmperiyasının rəhbərliyinə yazdığı, lakin bir cavab almadığını söyləmişdir.

Çar Rusiyası dövründən başlayaraq Almaniyadan Azərbaycana mühacirət etmiş ailələrin, onların ailələrində dünyaya göz açan şəxslərin – almanların (Oskar Şmerlinq və Yozef Rotter).Cumhuriyyət dövründə parlamentdə öz deputatı ilə təmsil olunan alman mühaciri (Seyidbeyli, 2013) Azərbaycanda alman diasporunun fəaliyyəti üçün geniş imkanlar yaratmışdır. Müharibədən sonrakı illərdə almanlar tərəfindən tikilmiş binalar, Bakının mərkəzində fəaliyyət göstərən alman kirxası Alman-Azərbaycan dostluğunun, diplomatik əlaqələrinin bariz nümunəsidir. Bu gün Bakıda neçə-neçə alman şirkətləri fəaliyyət göstərməkdədir, işğaldan azad olmuş ata-baba torpaqlarında gedən quruculuq işlərində də azərbaycanlılarla yanaşı, alman şirkətlərinin nümayəndələri də yaxından iştirak edir. Hal-hazırda Almaniyanın böyük şəhərlərində fəaliyyət göstərən "Azərbaycan evi" bu şəhərlərdə yaşayan azərbaycanlılara yaxından kömək etməklə bərabər, alman xalqının humanitar və mədəni həyatında da böyük rol oynayır, onları Azərbaycanın adət-ənənələri ilə yaxından tanış edir, Azərbaycan həqiqətlərini alman xalqına çatdırmaqda özünəməxsus rol oynayır (Tahirzadə, 2015).

Hal-hazırda 51 ölkədə 561 Azərbaycan diasporu təkilatı fəaliyyət göstərir.

Bakı şəhərində yerləşən Prezident kitabxanasında əldə etdiyimiz məlumatlara əsasən, Almaniyada 45 diaspor təşkilatımız fəaliyyət göstərir. Onlardan bir neçəsini sadalamaq istərdik:

1. ***Almaniya Azərbaycanlıları Koordinasiya Şurası (AATEİB)**: 2018-ci ildə təsis edilmiş bu şura, Almaniyada yaşayan azərbaycanlıların təşkilatlanması və inteqrasiyasını dəstəkləyir.*
2. ***Azərbaycan-Almaniya Cəmiyyəti**: 1988-ci ildə Berlində yaradılmış bu cəmiyyət, Azərbaycan ilə Almaniya arasında mədəniyyət və təhsil sahələrində əlaqələri gücləndirməyə çalışır.*
3. ***Frankfurt-Azərbaycan Cəmiyyəti**: Frankfurt şəhərində fəaliyyət göstərən bu cəmiyyət, Azərbaycan mədəniyyətini tanıtmaq və yerli icma ilə əlaqələri inkişaf etdirmək məqsədini güdür.*
4. ***Azərbaycan Evi (Berlin)**: 2000-ci ildə təsis edilmiş bu mərkəz, Azərbaycan mədəniyyətini təbliğ etmək və yerli icma ilə əlaqələri gücləndirmək məqsədini daşıyır.*
5. ***Buta-Daks e.V. (Hamburg)**: Hamburg şəhərində fəaliyyət göstərən bu təşkilat, Azərbaycan mədəniyyətini tanıtmaq və yerli icma ilə əlaqələri inkişaf etdirmək məqsədini güdür.*
6. ***Azərbaycan Türk Kültür və Dayanışma Dərnəyi (Köln)**: Köln şəhərində fəaliyyət göstərən bu dərnək, Azərbaycan və Türkiyə mədəniyyətlərini birləşdirərək yerli icma ilə əlaqələri inkişaf etdirməyə çalışır.*
7. ***Alman-Azərbaycan Mədəniyyət Evi (Köln)**: Köln şəhərində fəaliyyət göstərən bu mərkəz, Azərbaycan mədəniyyətini təbliğ etmək və yerli icma ilə əlaqələri gücləndirmək məqsədini daşıyır.*

***8. Azərbaycan Evi (Hamburg)****: Hamburg şəhərində fəaliyyət göstərən bu mərkəz, Azərbaycan mədəniyyətini tanıtmaq və yerli icma ilə əlaqələri inkişaf etdirmək məqsədini güdür.*

***9. Azərbaycan Evi (Frankfurt)****: Frankfurt şəhərində fəaliyyət göstərən bu mərkəz, Azərbaycan mədəniyyətini təbliğ etmək və yerli icma ilə əlaqələri gücləndirmək məqsədini daşıyır.*

***10. Azərbaycan Evi (Münhen)****: Münhen şəhərində fəaliyyət göstərən bu mərkəz, Azərbaycan mədəniyyətini tanıtmaq və yerli icma ilə əlaqələri inkişaf etdirmək məqsədini güdür (Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası).*

Bu təşkilatlar, Azərbaycan mədəniyyətini təbliğ etmək, yerli icma ilə əlaqələri inkişaf etdirmək və Almaniya ilə Azərbaycan arasında əlaqələri gücləndirmək məqsədini güdürlər.

## Nəticə

Beləliklə, cəsarətlə deyə bilərik ki, bu gün əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş Almaniya – Azərbaycan diplomatik əlaqələri daha da möhkəmlənmişdir. Bu əlaqələr hər iki dövlətin həm ictimai-siyasi, həm də mədəni-humanitar həyatında özünü aydın nəzərə çapdırır. Elmi simpoziumlarda, konfranslarda fikir mübadilələrinin keçirilməsi, qloballaşan dünyamızda böyük rol oynayır. Bu sahədə də Almaniyada çalışan Azərbaycan diasporunun faliyyəti də xüsusilə qeyd olunmalıdır. İkili standartların hökm sürdüyü bir vaxtda, Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılmasında Almaniyada fəaliyyət göstərən Azərbaycan diasporu və onun ətrafında sıx birləşən azərbaycanlıların böyük rolu vardır (Abdullayev, 2024).

## Ədəbiyyat

1. *Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası.* http://diaspor.gov.az/
2. Abdullayev, V. (2024). *İkinci Dünya müharibəsi dövründə Almaniyada Azərbaycan siyasi mühacirləri.*
3. Cəfərli, M. (2003). *Siyasi terror və Azərbaycan Almanlarının taleyi* (rus dilində, 2-ci nəşr).
4. Mattias, D., & Zeevald, E. (2015). *"Azad Berlin universiteti" – "Alman – Azərbaycan əlqələrinin tarixi".* İRS ERBE.
5. Rəşid. R. (2018). *Almaniyada Azərbaycan diasporu*. Express.
6. Seyidbeyli, M. (2013). Formirovaniye azerbaydzhanskoy diaspory – rezul'tat migratsii protsessov. *Naslediye*, 4(64).
7. Tahirzadə, N. (2015). *Azərbaycan tarixi oçerkləri və ilk təhsillilərimiz.*
8. Zeynalova, S. (2008). *Kavkazskaya globolizatsiya,* 1, 54.

Daxil oldu: 21.09.2024
Baxışa göndərildi: 30.10.2024
Təsdiq edildi: 24.12.2024
Çap olundu: 30.01.2025